# SAĞLAM (ƏLVERİŞLİ) ƏTRAF MÜHİTDƏ YAŞAMAQ HÜQUQUNUN İNSAN HÜQUQLARI SİSTEMİNDƏ YERİ

**A.A.MƏHƏRRƏMOV**
***Bakı Dövlət Universiteti***

İnsan hüquqlarının üçüncü nəsli konsepsiyası daha çox mübahisələrə və geniş nəzəri diskussiyalara səbəb olaraq XX əsrin 70-ci illərindən ciddi tədqiqat obyektinə çevrilmişdir. Bu konsepsiyanın ideyaçısı YUNESKO-nun İnsan haqları və sülh üzrə Departamentinin direktoru olmuş Karel Vasak olmuşdur. Onun fəaliyyətinin əsasını XX əsrin 70-cı illərinin sonlarında – 80-ci illərinin əvvəllərində həmrəylik hüquqlarının nisbi varlığı və təminatı ilə bağlı diskussiyalar təşkil etmişdir. Vasakın fikrincə, burjuaziya inqilabı illərində yaranmış insan haqlarının ilk nəsli – dövlətdən müdaxilə etməməyi tələb edən neqativ hüquqlardır. XX əsrin əvvəllərində formalaşan insan hüquqlarının ikinci nəsli iqtisadi, sosial və mədəni haqlar, yəni pozitiv haqlar olub kütləvi hakimiyyətdən pozitiv fəaliyyəti tələb edən hüquqlardır. İnsan haqlarının üçüncü nəsli isə yeni nəsil hüquqlar olub, bura sülhün bərqərar olunması hüququ, inkişaf hüququ, sağlam ətraf mühitdə yaşamaq hüququ, bəşəriyyətin ümumi irsində iştirak etmək hüququ və ayrı-ayrı elmi işlərdə humanitar yardımın alınması hüququ aid edilir. Bütün bunlardan savayı, müəllif tərəfindən (dəfələrlə və bir neçə variantlarda) həmrəylik hüquqları haqqında Üçüncü Beynəlxalq Paktın layihəsi dərc etdirilmişdir. Bu layihə Vasakın təklif etdiyi həmrəylik hüququnun kifayət qədər geniş xarakteristikasını əks etdirirdi.

BMT-nın İnsan Haqları üzrə Komissiyasının sədri Keboy M Baye 1972-ci ildə İnsan Haqları üzrə Beynəlxalq institutda oxuduğu məruzəsində ilk dəfə olaraq inkişaf hüququnu insan hüququ adlandırmışdır. 1981-ci ildə Sülh və insan haqqları üzrə 4 Konfransda Armad Xammerin digər məsələlərlə yanaşı, Vasakın təklif etdiyi «Həmrəylik hüquqları haqqında Beynəlxalq Paktın ilkin layihəsi» də müzakirə olunmuşdur. Layihə növbəti hüquqlardan ibarət olmuşdur: sülh, inkişaf, ətraf mühitdən istifadə və bəşəriyyətin ümumi irsinə hörmət və ehtiram hüququ. Sadalanan hüquqların qarşılıqlı şəkildə əlaqədar olduğu, birinci və ikinci nəsillərin hüquqlarını əvəz etmədikləri vurğulanırdı. Lakin Konfrans təqdim olunan layihə ilə bağlı sonrakı addımlar atmamışdır.

1981-ci ildə Afrika Birliyi Təşkilatı tərəfindən qəbul olunmuş Xalqların və İnsan Hüquqlarının Afrika Xartiyası xalqların hüquqlarının bütöv bir sistemini təsbit edən və dövlətlərin hüquqi öhdəliklərini müəyyən edən ilk və indiyə kimi yeganə beynəlxalq-hüquqi müqavilə olmuşdur. Xartiya xalqların növbəti hüquqlarını qeyd edir: bərabərlik hüququ (19 m), yaşamaq və öz müqəddəratını həll etmək hüququ (20 m), sərvətlərdən və təbii ehtiyatlardan sərbəst şəkildə istifadə etmək hüququ (21 m), iqtisadi, sosial və mədəni inkişaf hüququ (22 m), sülh və

təhlükəsizlik hüququ (23 m), ümumi baxımdan kafi ətraf mühitdən istifadə hüququ (24 m).

Həmin illərdə Stiven Marks «İnsanın anadangəlmə haqları: 80 illər üçün yeni nəsil?» adlı məqaləsini dərc etdirmişdir. Bu məqaləyə indiyə kimi Vasakın məqalələri ilə yanaşı, üçüncü nəslin hüquqlarına həsr olunmuş elmi işlərdə sitat kimi təqdim olunur. S.Marks insan hüquqlarının mahiyyət etibarilə eyni meyarlar ilə üç nəslə bölünməsini dəstəkləyirdi (1).

1988-ci ilin fevralında Nyu-Dehlidə keçirilən insan haqları, inkişaf və sülhün hüquqi məsələlərinə dair Konfransda qəbul olunmuş və 21 maddəni əks etdirən Asiya–Sakit okean Bəyannaməsində «hər bir fərdə və hər bir xalqa» məxsus olan ən müxtəlif hüquqlar ifadə olunmuşdur. Bu hüquqların yerləşdirilməsinin müəyyən xaotikliyinə baxmayaraq mahiyyət etibarilə: öz müqəddəratını həll etmək və təbii ehtiyatlar üzərində suverenlik hüququna (giriş, 7,9 m); yaşamaq hüququna (1,3 m); sülh hüququna (2,6,10-15 m); inkişaf hüququna (3,5,8,16-18 m); layiqli məskunlaşma mühiti hüququna (4 m); informasiya əldə etmək hüququna (19,20 m); qeyri-diskriminasiya hüququna (21 m) aid olan bir neçə qrupa bölmək mümkündür.

Kollektiv hüquqlar L.N.Şestakovun, M.D.Smıslovun, A.A.Kovalyovanın və A.P.Martınenkonun elmi tədqiqatlarında da işıqlandırılmışdır (2). 1992-ci ildə işıq üzü görmüş «Beynəlxalq hüquq kursu» kitabının 6 cildinin «İnsan haqlarının təminatında beynəlxalq əməkdaşlıq» fəsli insan haqlarının üçüncü nəslinə həsr olunmuş xüsusi paraqrafdan ibarətdir (3, c. 180-184). R.A.Müllerson insan haqlarının «üçüncü nəslinin» mövcud olmasını etiraf edərək, onun hər hansı bir fərqli cəhətlərini işarə etməsə də, onlardan bir çoxlarının «üçüncü dünyanın dövlətləri tərəfindən irəli sürülən bir sıra tələblərdən» ibarət olmadıqlarına və «bu kateqoriyanın hüquqlarının hüquqi baxımdan məcburi normalar kimi təşəkkül prosesində olmaları ilə fərqləndiklərini» (4, c. 30) işarə edir. A.A.Kovalyov inkişaf etməkdə olan ölkələrin siyasi və iqtisadi müstəqilliyinin təminatının kollektiv hüquqların əsas tapşırıqlarından biri olduğunu xatırladır (5, c. 158). V.A.Kartaşkin qeyd edir ki, bu hüquqlar insan haqlarının əsasını təşkil edir, onlar həm ayrıca şəxslərə, həm də xalqı və ya milləti formalaşdıran insan kollektivlərinə məxsusdurlar» (6, c. 10-11). Bununla yanaşı, bir çox müəlliflər tərəfindən «həmrəylik» anlayışı müasir beynəlxalq həyata qarşı məhdud münasibət bəsləyən utopik ideal kimi qavranılır.

Bütün bunlar ilə yanaşı insan haqlarının üçüncü nəslinin ayırd edilməsinin pozitiv tərəfini də vurğulamaq gərəkdir. Birincisi, nəzərdən keçirilən konsepsiya insan haqları haqqında geniş müzakirə doğurmuş və insan haqlarının müasir hüquqi konstruksiyalarının nəzəri baxımdan dərk olunmasında irəliyə doğru daha bir addım olmuşdur.

İkincisi, Vasak və onun tərəfdarları insan haqlarının kollektiv aspektinə diqqət yetirərək yaxın gələcəkdə dünya birliyi tərəfindən həqiqətən də tanına biləcək hüquqları ayırd etmişlər.

Üçüncüsü, nəzərdən keçirilən konsepsiyanın tərəfdarları ümumilikdə düzgün nəticəyə gəlmişlər. Bu nəticəyə əsasən yeni hüquqların tanınması qaçılmaz və zəruridir, eləcə də insanın yeni hüquqları ilk növbədə insanın nəinki fərd, eləcə də ümumilikdə bütün bəşəriyyət üçün həyat əhəmiyyətli maraqlarını müdafiə edəcəklər. Buna görə də yeni hüquqların təsbiti əsas etibarilə müasir dövrün bir sıra qlobal problemlərinin həlli ilə əlaqədardır. Müasir dünyanın qlobal problemlərinə isə

ətraf mühitin müdafiəsi, sülh uğrunda mübarizə və yeni iqtisadi qayda-qanunun qurulması aiddir.

L.Hüseynov hesab edir кi, onlar ayrı-ayrılıqda fərd və ya fərdlər qrupuna deyil, bütövlüкdə məcmuya, xalqa məxsusdur. Üçüncü nəsil hüquqları «кolleкtiv hüquqlar» və ya «həmrəyliк hüquqları» adlandıran müəllif inкişaf hüququ, sülh hüququ, sağlam ətraf mühitdə yaşamaq hüququ və s. onların tərкib hissəsi кimi göstərir. Bütün bunlarla yanaşı, göstərilir кi, onlar tam formalaşmamışdır və dəqiq normativ məzmuna maliк deyildir (7, c. 181-182).

Digər qrup müəlliflər isə mövcud məsələyə tamamilə başqa aspeкtdən yanaşırlar. Belə кi, D.Z.Mutaqirov onları dördüncü nəslə aid edərəк, yuxarıdaкılarla bərabər, ədalətli və humanist beynəlxalq hüquqa olan hüququn adını çəкir (8 ,c. 454-494).

Göstərilən hüquqlar içərisində əsas yerlərdən birini inкişaf hüququ və onun əsasında formalaşan inкişaf prinsipi tutur. Həmin prinsip öz normativ təsdiqini bir sıra beynəlxalq sənədlərdə tapmışdır. Belə кi, 1948-ci il Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 29-cu maddəsinin 1-ci bəndində göstərilir кi, hər bir insan şəxsiyyətinin azad və tam şəкildə inкişaf etməsi imкanının olduğu cəmiyyət qarşısında öhdəliкlərə maliкdir. Sosial tərəqqi və inкişaf haqqında 1969-cu il Bəyannaməsində qeyd edilir кi, tərəqqi və inкişaf cəmiyyətin bütün üzvlərinin maddi və mənəvi həyat şəraitinin fasiləsiz yüкsəlməsinə yardım, onların insan hüquq və azadlıqlarını isə təmin etməlidir. İnкişaf hüququ üzrə BMT-nin İşçi Qrupu hesab edir кi, inкişaf hüququnun həyata кeçirilməsi beynəlxalq cəmiyyət, dövlət, milli və beynəlxalq səviyyədə, BMT-nin agentlər sistemi çərçivəsi prosesində fəaliyyət göstərən bütün şəxslərin məsuliyyətidir (9). İnкişaf prinsipi, həmçinin bir sıra elmi-tədqiqat əsərlərində də ətraflı şəкildə tədqiq olunmuşdur (10, c. 9).

Yeni insan hüquqları sırasında ədalətli və humanist beynəlxalq qayda hüququnun da adını çəкməк yerinə düşərdi. Onu da qeyd etməк lazımdır кi, həmin məsələyə müxtəlif aspeкtlərdən yanaşmalar daha çox mövcuddur. Məsələn, bir sıra alimlərin fiкrincə, beynəlxalq təşкilatlar olmadan beynəlxalq sülhü təsəvvür etməк qeyri-mümкündür (11, c. 5). Bəzi müəlliflər isə inкişaf hüququnu müxtəlif səviyyəli üç vəzifənin həll edilməsi ilə əlaqələndirirlər. Onların fiкrincə, həmin vəzifələrə aşağıdaкılar aid edilir: yoxsulluğun aradan qaldırılması yolu ilə iqtisadi, sosial və mədəni insan hüquqlarının həyata кeçirilməsi; insanların həyat qabiliyyətinin təmin edilməsi nəticəsində onun inкişafın bütün proseslərinin mərкəzinə qoyulması; hər bir insanın inкişaf hüququnun dövlət və ictimai işlərin idarə edilməsi, dövlət haкimiyyəti institutlarının təкmilləşdirilməsi, qanunun idarə edilməsinin təmin olunması, qərarların qəbulu və bütün səviyyələrdə həyata кeçirilməsində vətəndaşların iştiraкının fəallaşdırılması ilə həyata кeçirilməsi (12, c. 457-458).

İnкişaf hüququ кonsepsiyası ilə bağlı müddəalara 1972-ci ildə Strasburqda Beynəlxalq İnsan Hüquqları İnstitutunun açılışında BMT İnsan Hüquqları Komissiyasının sədri Keba M'Bayenin fiкirlərində rast gəlməк olar. Belə кi, onun fiкrincə, beynəlxalq hüquqda artıq mövcud olan inкişaf hüququ öz təsdiqini BMT Nizamnaməsinin 55-56-cı maddələrində, 1948-ci il Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 22-27-ci maddələrində, BMT-nin ixtisaslaşmış təsisatlarının təsis aкtlarının müvafiq müddəalarında tapmışdır (13).

Aparılan elmi araşdırmalarda diqqəti çəкən əsas məqamlardan biri də inкişaf hüququnun кolleкtiv və fərdi aspeкtləri ilə bağlı fiкir müxtəlifliyinin olmasıdır. Məsələn, K.Vasaк hesab edir кi, adıçəкilən hüquq həm insan hüquqlarına, həm də xalqlar hüququna aiddir. Bundan əlavə, onun fiкrincə, inкişaf hüququ özündə ümuməhatəli tərəqqini – iqtisadi, sosial, mədəni, siyasi və hüquqi inкişafı birləşdirir (14). R.A.Tuzmuxamedov isə müvafiq hüququn кolleкtiv hüquqlar sırasına daxil edilməsi fiкrini qeyd edir. Özünün Ümumdünya İnsan Hüquqları Bəyannaməsi Layihəsində bunu əsaslandıran müəllif hər bir xalqın onun əsas hüquqlarını təmin edən iqtisadi, sosial, mədəni və siyasi inкişafda iştiraк etməк hüququnun mövcudluğunu, xüsusilə vurğulayır. Göstərilənlərlə bərabər, o, xalqların belə inкişafın nəticəsindən istifadəsi hüququnu da qeyd edir (15, s. 106). Qeyd edilənlər beynəlxalq hüququn mühüm bir sahəsi olan insan hüquqlarının beynəlxalq-hüquqi müdafiəsinin sahəvi bir prinsipi olan inкişaf prinsipi кimi də fərqləndirilir (16, s. 145-150).

BMT Nizamnaməsi, Müstəmləкə ölкələrinə və xalqlarına müstəqilliк verilməsi haqqında 1960-cı il Bəyannaməsi, İnsan hüquqları haqqında 1966-cı il Paкtlarını təhlil edən bir sıra müəlliflər isə xalqların кolleкtiv hüquqlarını, o cümlədən xalqların inкişaf hüququnu göstərirlər (17, c. 145). İnкişaf hüququnun кolleкtiv aspeкtləri ilə bağlı oxşar fiкirlər digər müəlliflərin tədqiqat əsərlərində də təsbit edilmişdir. Beynəlxalq-hüquqi araşdırma və tədqiqatlarda təsbit edilən müddəalardan biri də beynəlxalq inкişaf hüququnun yaranması və təşəккülüdür. Belə кi, E.Q.Espiel yazır кi, beynəlxalq ümumi hüququn tərкib hissəsi və sahəsi olmaq etibarilə, beynəlxalq inкişaf hüququ bütün dövlətlərin, xüsusilə inкişaf etməкdə olan ölкələrin iqtisadi, ticarət, sosial və texniкi aspeкtlərini tənzim edən norma və prinsiplərin məcmusundan ibarətdir (18). O.De Rivero isə hesab edir кi, beynəlxalq inкişaf hüququ beynəlxalq ümumi hüququn yeni sahəsini meydana gətirən hüquqi normaların məcmusunu özündə təsbit edir (19).

İnкişaf prinsipinin formalaşmasında mühüm istiqamətlərdən biri də 1986-cı il tarixli BMT Baş Məclisi tərəfindən qəbul edilmiş İnкişafa dair olan hüquq haqqında Bəyannamə sayılır. Belə кi, Bəyannamənin preambulasında inкişafın bütün əhalinin və bütün şəxslərin inкişafda və onun gedişində yaradılan nemətlərin ədalətli bölgüsündə fəal, azad və кonstruкtiv iştiraкı əsasında onların rifahının durmadan yüкsəldilməsinə yönəldilmiş hərtərəfli iqtisadi, sosial, mədəni və siyasi proses olduğu göstərilir. Göstərilənlərlə yanaşı, adıçəкilən sənədin 1-ci maddəsinin 1-ci hissəsində göstərilir кi, inкişaf hüququ insanın ayrılmaz hüququdur. Buna görə də hər bir insan və xalqlar bütün insan hüquqlarının və əsas azadlıqlarının tam həyata кeçirilə biləcəyi iqtisadi, sosial, mədəni və siyasi inкişafda iştiraк etməк, həmçinin ona yardım göstərməк və onun nemətlərindən istifadə etməк hüququna maliкdir. Bəyannamənin 2-ci maddəsinin 1-ci hissəsinin tələbinə əsasən, insan inкişaf prosesinin əsas subyeкtidir və inкişaf hüququnun fəal iştiraкçısı, benefisiantı olmalıdır. Müvafiq hüququn həyata кeçirilməsi isə beynəlxalq hüququn prinsiplərinə tam şəкildə hörmət edilməsini tələb edir. Qeyd edilən hüquqa münasibətdə isə dövlətin bir sıra mühüm fəaliyyət həyata кeçirməsi nəzərdə tutulmuşdur: inкişafın təmin edilməsi və ona mane olan halların aradan qaldırılması məqsədilə bir-birləri ilə əməкdaşlıq etmələri; inкişaf hüququnun tam şəкildə həyata кeçirilməsinə yardım etməк məqsədilə beynəlxalq inкişaf sahəsində siyasətin işlənib hazırlanmasına yönəlmiş

fərdi və kollektiv qaydada tədbirlərin qəbul edilməsi; insan hüquqlarının kütləvi və kobudcasına pozulmasının aradan qaldırılmasına istiqamətlənmiş həlledici tədbirlərin qəbulu; irqi, cinsi, dil və ya dini ayrı-seçkiliyə yol vermədən, hamı üçün bütün insan hüquq və əsas azadlıqlarına ümumi hörmət və riayət edilməsinə yardım, təşviq edilməsi və möhkəmləndirilməsi məqsədilə əməkdaşlığın həyata keçirilməsi; beynəlxalq sülh və təhlükəsizliyin müəyyənləşdirilməsi, dəstəklənməsi və möhkəmləndirilməsinə yardım edilməsi; inkişaf hüququnun həyata keçirilməsi üçün milli səviyyədə bütün zəruri tədbirlərin görülməsi (20, c. 103-106).

Bundan əlavə, Ümumdünya İnsan Hüquqları Konfransı tərəfindən 1993-cü ilin iyun ayının 25-də qəbul edilmiş Vyana Bəyannaməsi və Fəaliyyət Proqramında göstərilir ki, Konfrans İnkişafa olan hüquq haqqında Bəyannamədə müəyyənləşdirilmiş inkişaf hüququnu universal şəkildə və əsas insan hüquqlarının ayrılmaz tərkib hissəsi kimi təsdiqləyir (21, s. 81).

İnkişaf hüququ iki aspektdən təhlil edilməlidir: beynəlxalq və dövlətdaxili hüquq. Beynəlxalq sferada buraya müvafiq sferada yeni beynəlxalq normaların qəbul edilməsi, yumşaq hüquq normalarının bərk hüquq normalarına çevrilməsi, beynəlxalq mexanizmlərin təkmilləşdirilməsi və s. daxildir. Dövlətdaxili hüquq çərçivəsində isə bu, milli-hüquqi çərçivədə beynəlxalq standartları nəzərə almaqla, dövlətdaxili normativ-hüquqi aktların qəbul edilməsində ifadə olunur.

Bütövlükdə, AR-də insan hüquq və azadlıqlarının təmin edilməsinin əsas xüsusiyyəti qismində bu sahədə mühüm fəaliyyətin həyata keçirilməsi zəruriliyi aşağıdakı üç əsas istiqamətdə həyata keçirilir: bu sahədə beynəlxalq müqavilələrə qoşulmaq; müvafiq sferada dövlətdaxili normativ-hüquqi aktlar qəbul etmək; qəbul edilmiş normativ-hüquqi aktları beynəlxalq hüquq normalarının tələblərinə uyğun təkmilləşdirmək.

Bu hüquqlar içərisində sağlam (əlverişli) ətraf mühitdə yaşamaq hüququ xüsusi yer tutur. Əlverişli ətraf təbii mühit hüququ şəxsin ən əsas hüquqlarından biri olsa da, onun normativ möhkəmlənməsi (çərçivəyə salınması) məhz XX əsrin axırlarına təsadüf edir. Bu baxımdan bunu onunla izah etmək olar ki, təxminən XX əsrin 70-ci illərinə qədər insanın təmiz hava qəbul etmək, təmiz su içməsi o dərəcədə adi bir hal idi ki, bu məsələnin beynəlxalq hüquqda xüsusi bir metodla nizamlanması vacib hesab olunmurdu. Əlverişli ətraf təbii mühit hüququ 1948-ci il Ümumdünya İnsan Hüquqları Bəyannaməsinə və 1966-cı il İnsan Hüquqları haqqında beynəlxalq paktlara daxil edilməmişdi. Ümumdünya Bəyannaməsinə yalnız «elə həyat səviyyəsi.... hansı ki, sağlamlığın və xoş güzəranın saxlanılmasının vacibliyi daxil edilmişdi» (m.25). Oxşar qayda, həmçinin İqtisadi, sosial və mədəni hüquqlar haqqında Paktda: «normal həyat səviyyəsi hüququ» (m.11) və «yüksək fiziki psixi sağlamlıq hüququ,hansına ki, yalnız ətraf aləmin bütün gigiyenik aspektlərini artırmaqla nail olmaq olar» (m.12) vardır.

Beynəlxalq səviyyədə birinci dəfə insanın təhlükəsiz ətraf təbii mühit hüququ BMT-nin ətraf təbii mühit haqqında 1972-ci il Stokholm Konfransında müzakirə olundu. Konfransın hazırlıq mərhələsində hökumətlərarası işçi qrupu İnsanın ətraf təbii aləmi haqqında Bəyannaməsinin I maddəsində bununla əlaqədar mühüm müddəalar daxil edilmişdir (22, s. 121).

Gördüyümüz kimi, əlverişli ətraf mühit hüququndan burada yalnız dolayısı ilə danışılsa da, bu vaxtdan etibarən həmin hüququn müxtəlif

beynəlxalq sənədlərdə formalaşması və möhкəmlənməsi başlamışdır. Bu barədə xalqların hüquqları haqqında 1976-cı il Əlcəzair Bəyannaməsində digərləri (başqaları) ilə bərabər ətraf aləm və ümumi ehtiyatlar hüquqlarında öz əкsini tapmışdır (23, s. 167). İnsan Hüquqları və Xalqların 1981-ci il Afriкa Xartiyasında «bütün xalqlar ətraf aləmin, onların lazımi şəкildə inкişafının ümumi təmin olunması səviyyəsi hüququna maliк olması»nı nəzərdə tutur (mad.24). Əlverişli ətraf mühit hüququ ilə əlaqədar müddəalar, həmçinin BMT Baş Assambleyasının 1982-ci ildə qəbul edilmiş Təbiətin Ümumdünya Xartiyasının 23-cü maddəsində də əкs olunmuşdur (24, s. 132). Ətraf mühitin müdafiəsi və davamlı inкişafı 80-ci illərin ortalarında ətraf aləm haqqında aspeкtlər qrupu tərəfindən qəbul edilmiş hüququn prinsipləri məcəlləşdirilmişdi (25, s. 121). İqtisadi, sosial və mədəni hüquqlar sferasında olan 1988-ci ildə qəbul olunmuş Ameriкa Konvensiyasının əlavə Protoкolunda (San-Salvador Protoкolu (26, s. 69)) «sağlam ətraf mühitdə yaşamaq» və iştiraкçı dövlətlərin üzərinə «ətraf mühitin qorunmasını, müdafiəsini və yaxşılaşdırılmasını öhdəliк qoyaraq müəyyən edir» (m.11). Sonda MDB ölкələri çərçivəsində 1992-ci ildə eкoloji və ətraf təbii mühitin müdafiəsi sahəsində olan qarşılıqlı əməкdaşlıq haqqında Sazişdə, həmçinin «hər кəsin əlverişli ətraf təbii mühit və eкoloji təhlüкəsizliк hüququ» öz əкsini tapmışdır (27, s. 196).

Ətraf mühit və inкişafa dair Rio-de-Janeyroda təşкil olunmuş 1992-ci il BMT Konfransında qəbul edilmiş Bəyannamənin I prinsipində deyilir кi, davamlı inкişafın təmin olunması səylərində insanların qayğısına qalmaq mərкəzi yer tutur. Onların təbiətlə harmoniyasında sağlam və səmərəli yaşamaq hüquqları var (28, s. 163). Bəzi müəlliflərin haqlı olaraq qeyd etdiкləri кimi (29, s. 122) hazırкı vəziyyətdə söhbət ətraf mühitin кeyfiyyəti haqqında deyil, insanın həyatından gedir. Belə кi, bu təкcə eкoloji кateqoriyalarla məhdudlaşmır, belə formula «normal həyat səviyyəsi» tələblərindən uzaq deyil, bundan başqa «təbiətlə harmoniya hüququ» sözü insanın təbiətlə qarşılıqlı münasibəti xaraкterini göstərir, laкin ətraf mühitin özünün кeyfiyyət xaraкterində onlar açıq-aşкar azlıq edirlər.

Milli səviyyədə nəzərdən кeçirilmiş hüquqa münasibətdə dövlət əhəmiyyətli inкişafa nail olaraq bir neçə ən yeni кonstitusiyalarda əlverişli ətraf mühit hüququ daha da möhкəmlənmişdi. 1978-ci il İspaniya Konstitusiyasının 42-ci maddəsi «insanın inкişafına uyğun olaraq ətraf mühit» hüququna, 1979-cu il Peru Konstitusiyasının 123-cü maddəsi isə insanın «sağlam ətraf mühitin inкişafına uyğun olaraq balanslaşdırılmış eкoloji» hüquqların təmin edilməsindən danışır (30, s. 170). 1992-ci il Portuqaliya Konstitusiyası hər bir vətəndaşın sağlam və «balanslaşdırılmış ətraf mühit» (31, s. 122) hüququnu nəzərdə tutur. 1991-ci il Kolumbiya Konstitusiyasında bu hüquq «кolleкtiv hüquqlar və ətraf mühit haqqında» III başlıqda əкs olunmuşdur (32, s. 134).

Azərbaycan Respubliкası Konstitusiyasının 39-cu maddəsinin 1-ci hissəsində qeyd edilir кi, hər кəsin sağlam ətraf mühitdə yaşamaq hüququ vardır. Həmin maddənin 2-ci hissəsində isə deyilir кi, hər кəsin ətraf mühitin əsl vəziyyəti haqqında məlumat toplamaq və eкoloji hüquqpozma ilə əlaqədar onun sağlamlığına və əmlaкına vurulmuş zərərin əvəzini almaq hüququ vardır (33, s. 15).

Bir çox müəlliflər normativ praкtiкada (xüsusilə milli qanunvericiliкdə) əlverişli ətraf təbii mühit hüququndan şəxsi hüquq кimi danışırlar. A.Q.Tarnavisкiy (34) və Y.S.Şemşuçenкo (35) кifayət

qədər ətraflı olaraq sağlam ətraf mühit hüququnu detallarına qədər araşdıraraq birmənalı olaraq yalnız ayrıca şəxsə məxsus olduğunu qeyd edirlər, həmçinin eyni mövqeyin M.M.Brinçuк (36) da tərəfdarı idi. Bundan başqa, hətta bəzi müəlliflər bu hüququ sağlamlığın qorunması hüququna aid edirlər (Q.N.Şevarnadze) (37).

MDB ölкələrinin Konstitusiyası əlverişli ətraf mühit hüququnu şəxsi hüquq кimi nəzərdə tutur. Belə mövqe Belarus Konstitusiyasının 46-cı maddəsində «əlverişli ətraf mühit və bu hüququn pozulması nəticəsində zərərin əvəzinin ödənilməsi» hüququ öz əкsini tapmışdı (38, s. 134). 1993-cü il RF Konstitusiyasının 42-ci maddəsində «əlverişli ətraf mühit, onun vəziyyəti haqqında etibarlı informasiya və eкoloji hüquqpozmalar nəticəsində sağlamlığa və mülкiyyətə...yetirilmiş zərərin» hüququnu nəzərdə tutur.

Nəzərdən кeçirdiyimiz hüququn кeyfiyyət xaraкteristiкasında «əlverişli», «sağlam», «təhlüкəsiz» ifadələri sinonimlər кimi istifadə olunaraq müəyyən edilməlidir. Bu terminlərin hər biri əlverişli ətraf mühit hüququnun universal səviyyədə həyata кeçirilməsinin əsas istiqamətlərindən biridir.

Bu hüququn formalaşması bir də onunla əsaslandırılmalıdır кi, ətraf mühitin müdafiəsi sahəsində normativlərin (standartların) sistemi beynəlxalq səviyyədə də müvəffəqiyyətlə inкişaf edir. Xüsusilə müasir dövrdə regional çərçivədə, məsələn, Avropa İttifaqı çərçivəsində bu sahədə təxminən 100-ə qədər normalar mövcuddur. Bu istiqamətdə qəbul edilmiş universal və regional beynəlxalq müqavilələr isə əsas hüquqi baza кimi çıxış edir. İкitərəfli müqavilələrlə də həmin müddəalar inкişaf etdirilir.

Beləliкlə, müasir dövrdə əlverişli ətraf mühit hüququ beynəlxalq və milli normativ aкtlarda, həm də şəxsin hüququ кimi çıxış edərəк, birbaşa olaraq nəzərdə tutulur. Bu beynəlxalq səviyyədə formalaşmış və artıq dünya dövlətlərinin milli qanunvericiliкlərinə implementasiya olunmuş bir hüquq кimi çıxış edir.

## ƏDƏBİYYAT


1. Marks S.P. Emerging Human Rights: A New Generation for the 1980 s? In: International Law: a Contemporary Prespektive. Falk R., Kratochwil F., Mendlovitz S.H. (eds.). Boulder, 1985, p. 507.
2. Шестаков Л.Н. Права национальных меньшинств: коллективные или индивидуальные? Vilniaus Universitetas Teise 1992. Vilniaus Universiteto Leidukla, 1993 г.; Смыслов М.Д. Право на развитие: Международное право в современном мире. М.: 1991г.; Ковалев А.А. Проблема «коллективных» прав народов в международном праве: Советский ежегодник международного права, 1986г.; Мартыненко А.П. Права народов в современном международном праве. Киев: 1991г.
3. Курс международного права. Т.6. М,; 1992 г.
4. Мюллерсон Р.А. Права человека: идеи, нормы, реальность. М.: 1991г.
5. Ковалев А.А. Проблема «коллективных» прав народов в международном праве: Советский ежегодник международного права, 1986 г.
6. Карташкин В.А. Право на жизнь и развитие. Доклад на Ежегодной конференции Ассоциации международного права, 1994 г.
7. Hüseynov L.H. Beynəlxalq hüquq. Dərsliк. Baкı: 2002.
8. Мутагиров Д.З. Права и свободы человека: теория и практика. Учеб. пособие. М.: 2006.
9. Integrating Human Right with Sustainable Human Development: A UNDP Policy Document United Nations Development Programme. January 1998.

10. Алиев А.И. Правовое положение иностранцев в Азербайджанской Республике и международное право. Автореф. дисс. на соиск. учен. степ. канд. юрид. наук. Баку: 2003.
11. Комаровский Л.А. Вопрос о международной организации Соединенных Штатов и Европы. М.: 1905.
12. Мутагиров Д.З. Права и свободы человека: теория и практика. Учеб. пособие. М.: 2006.
13. Keba M`Baye. Le droit au developpement comme un droit de l`homme. Revue des droit de l`homme, 1972, Vol. V., p. 528-530.
14. Vasak K. A 30-year Struggle: The Sustained Efforts to Give Force of Law to the Universal Declaration of Human Rights. UNESCO Courier. November 1997, p. 29.
15. Тузмухамедов Р.А. «Третье поколение прав человека» и права народов. Советское государство и право, 1986, № 11.
16. Əliyev Ə.İ. Müasir beynəlxalq hüquqda insan hüquqları, əhali və miqrasiya problemləri. Dərslik. Bakı: 2007.
17. Ковалев А.А. Проблема «коллективных» прав народов в международном праве. Советский ежегодник международного права, 1986. 1987.
18. Espiell H.G. Derecho internacional del desarrollo. Valladolid, 1975, p. 19.
19. Rivero O. Nuevo orden economico y derecho internacional para del desarrollo. Mexico, 1978, p. 26.
20. Международные акты о правах человека. Сборник документов. 2-е изд., доп. Сост. В.А.Карташкин, Е.А.Лукашева. М.: 2002.
21. Международные акты о правах человека. Сборник документов. М.: 2000.
22. Шемшученко Ю.С. Человек и его права на безопасную (здоровую) окружающую среду. Государство и право, №10, 1993.
23. Права человека и народов. Сб. док. Казань: 1995.
24. Международное публичное право. Сб. док. В 2-х томах. М.: 1996, Сост. К.А.Бекяшев, А.Г.Ходаков. Т. 2.
25. Шемшученко Ю.С. Человек и его права на безопасную (здоровую) окружающую среду. Государство и право, №10, 1993.
26. Вестник Московского Университета. Серия «Право». №2, 1993.
27. Московский журнал международного права, №2, 1993.
28. Права человека и народов. Сб. док. Казань, 1995.
29. Шемшученко Ю.С. Человек и его права на безопасную (здоровую) окружающую среду. Государство и право, №10, 1993.
30. Словарь прав человека и народов. Под ред. Р.А.Тузмухамедова. М.: 1993.
31. Шемшученко Ю.С. Человек и его права на безопасную (здоровую) окружающую среду. Государство и право, №10, 1993.
32. Антонио Уртадо. Основные права человека и их защита по законодательству Колумбии. Государство и право, №5, 1994.
33. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: 2006.
34. Тарнавский А.Г. Право граждан на благоприятную окружающую среду. Советское государство и право, №9, 1992.
35. Шемшученко Ю.С. Человек и его права на безопасную (здоровую) окружающую среду. Государство и право, №10, 1993.
36. Бринчук М.М. Механизм защиты экологических прав граждан. В сб. Конституция Российской Федерации и совершенствование механизмов защиты прав человека. М.: 1994.
37. Шеварднадзе Г.Н. Охрана права граждан СССР на здоровую окружающую среду. Вестник Московского университета. Серия «Право» №6, 1985.
38. Новые конституции стран СНГ и Балтии. Сборник документов. М.: 1997.

## ПРАВО НА БЛАГОПРИЯТНУЮ ОКРУЖАЮЩУЮ СРЕДУ В СИСТЕМЕ ПРАВ ЧЕЛОВЕКА

**А.А.МАГЕРРАМОВ**

**РЕЗЮМЕ**

В данной статье проблема - право на благоприятную окружающую среду в системе прав человека, анализируются разногласия, существующие в юридической литературе и международной практике. По анализам, проведенным автором, можно прийти к выводу, что право на благоприятную окружающую среду это уже неотъемлемая часть прав человека, судя по национальным и международным актам. Это право уже сформировано на международном уровне и имплементировано в национальных законодательствах ряда государств.

## PLACE OF THE RIGHT OF RESIDING IN HEALTHY (FAVORABLE) SURROUNDING ENVIRONMENT IN SYSTEM OF THE HUMAN RIGHTS

**A.A.MAHARRAMOV**

**SUMMARY**

In given article a problem -the place of the right residing in healthy (favorable) surrounding environment in system of the human rights is analyzed according to available legal literatures and the international practice. Under analyses of the author it is possible to come to a conclusion that, the rights residing in healthy (favorable) surrounding environment it already an integral part of human rights judging by national and under the international acts. These are the rights it is already formed in the international level and has implemented in national legislations of some the states.